# Ölkəmizdə sosial dövlət quruculuğu modelinin müəllifi

**Müasir dünyanın tarixinə siyasi müdriklik və əzəmətlə mənəvi kamilliyi şəxsiyyətində birləşdirən lider nümunəsi gətirən, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi hər iki dövr möhtəşəm quruculuq, dinamik və hərtərəfli inkişaf mərhələləri kimi tariximizin qızıl səhifələrinə çevrilib.**

Bu mərhələlərin hər biri Azərbaycanın müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişdiyi dövr olmaqla, ulu öndərimizin dövlətçilik fəlsəfəsinin əsasını təşkil edən sosial rifah amilinin də güclənməsi və etibarlı sosial müdafiə sisteminin formalaşması ilə müşayiət olunub. Ölkəmizin bütün sahələrdə uzunmüddətli inkişafına xidmət edən genişmiqyaslı islahatların sosial hədəflərlə uğurlu şəkildə uzlaşdırılması təmin edilərək, milli iqtisadiyyatın inkişafında əhalinin sosial maraqlarının təminatı prinsipi ön planda saxlanılıb.

Bu gün ölkəmizdə xalqımız tərəfindən böyük ehtiram və minnətdarlıqla çağdaş dövlətimizin qurucusu, ulu öndərimiz Heydər Əliyevin əziz və unudulmaz xatirəsi anılır, bu dahi şəxsiyyətin millətimiz və dövlətimiz qarşısında misilsiz xidmətləri xatırlanır. Onun 40 ilə yaxın ölkəmizə rəhbərliyi dövründə xalqımızın daha nüfuzlu və daha şərəfli millət kimi formalaşmasında müstəsna rolu olmuşdur. Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onun tükənməz və əbədiyaşar irsi Azərbaycan var olduqca, o da yaşayacaqdır.

Dahi şəxsiyyət milli inkişaf konsepsiyasında əsas istiqamət kimi dövlət büdcəsinin sosialyönümlü olmasına xüsusi əhəmiyyət verib. Həyata keçirdiyi məqsədyönlü, uzaqgörən siyasəti ilə Azərbaycanı bütün çətin sınaqlardan uğurla çıxaran ulu öndər ölkədə makroiqtisadi sabitliyin qorunması və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıb, yüksək səviyyədə hazırladığı bu strategiya ilə milli dövlətçiliyimizin güclənməsinə böyük təkan verib.

Ümummilli liderimiz Heydər Əliyevin qəbul etdiyi qərarlar nəticəsində sosial cəhətdən həssas kateqoriyaların, o cümlədən şəhid ailələrinin, müharibə veteranlarının və əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, Milli qəhrəmanlara, həlak olanların ailələrinə yardım edilməsi, minimum əməkhaqqı məbləğinin artırılması istiqamətlərində ilk və mühüm addımlar atıldı. "Biz sosial cəhətdən köməyə ehtiyacı olan insanların sosial təminatını gündəngünə yaxşılaşdırmağa çalışmalıyıq", - deyən ulu öndərin təşəbbüsü və tapşırığı əsasında sosial cəhətdən həssas qruplarla bağlı sosial müdafiə tədbirlərinin əhatə dairəsi yeni sosial təminat və reabilitasiya məqsədli proqramlarla xeyli genişləndirildi.

Ulu öndər Heydər Əliyev cəmiyyətin həssas kateqoriyasına mənsub insanlara bu qayğını çox çətin hərbi-siyasi dönəmdə - maddi imkanların kəskin məhdudluğu şəraitində həyata keçirirdi. Bir tərəfdən Ermənistanın işğalçılıq siyasətinə qarşı hərbi və siyasi cəbhədə mübarizə aparan, digər tərəfdən müstəqilliyimizi möhkəmləndirmək üçün çevik diplomatiya həyata keçirən Heydər Əliyev, eyni zamanda sosial dövlət modelini formalaşdırır, vətəndaşların daha yaxşı yaşaması üçün bütün imkanlardan maksimum istifadə edirdi. Bu, milli tariximizin böyük və qürurverici həqiqətlərindən biridir. Heydər Əliyevin bu yanaşması Azərbaycan xalqının çoxəsrlik millimənəvi dəyərlər sistemi ilə də tam uzlaşır, o cümlədən bu dəyərlərin qorunmasına xidmət edirdi. Xalqımızın xarakterində kök salan köməyə ehtiyacı olan insanlara yardım, darda qalana kömək etmək, çətin məqamda həmrəylik sərgiləmək kimi dəyərlər Heydər Əliyev siyasətinin ana xəttini təşkil edir, cəmiyyəti də bu ruhda köklənyirdi. Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyevin sosial siyasəti həm də mənəvi baxımdan mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanda onun qurduğu müasir sosial dövlət modeli region dövlətləri, həm də bütün dünya üçün nümunədir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin əsasında bu sahənin dayanıqlı olması, ölkənin iqtisadi potensialına əsaslanması, digər tərəfdən də dünya təcrübəsində uğurla sınaqdan çıxmış mükəmməl normativ-hüquqi bazaya söykənməsi ön planda dayanır. Ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalandı.

Qısa zamanda respublikada nəinki sosial sabitliyə nail olundu, eyni zamanda 1990-cı illərdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əliliyi olan vətəndaşların dövlət hesabına mənzillərlə, minik avtomobilləri ilə təminatı, fiziki məhdudiyyətli insanların qabiliyyət və istedadlarının tanıdılması üçün ümumrespublika tədbirlərin təşkili işlərinə başlanılmaqla, bu işlər ildən-ilə gücləndirildi. Ulu öndər Heydər Əliyev tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım olub. Azərbaycanda sosial dövlətin möhkəm təməlinin formalaşması həm də artıq 2000-ci ildə ölkəmizin qlobal səviyyədə yoxsulluğun kəskin şəkildə azaldılmasını nəzərdə tutan beynəlxalq təşəbbüs və proqramlara fəal şəkildə qoşulmasına imkan verdi.

BMT-nin 2000-ci ilin sentyabrında Nyu-Yorkda keçirilən Minilliyin Sammitində 147 ölkənin qoşulduğu Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından imzalayan ümummilli liderimiz Heydər Əliyev bu mühüm sənəddən irəli gələn öhdəliklərin ölkəmizdə uğurla yerinə yetirilməsi üçün uğurlu dövlət siyasətinin də formalaşmasını təmin edib. Bəyannamədə 8 qlobal məqsəddən birincisi - ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılması idi. Ulu öndərimizin müəllifi olduğu uğurlu sosial-iqtisadi inkişaf strategiyası və iqtisadi inkişafın təmin edilməsinə istiqamətlənən Dövlət proqramları ölkəmizdə mühüm irəliləyişlərə şərait yaratdı. Onun rəhbərliyi dövründə respublikada əmək münasibətlərinin hüquqi bazasının yaradılması, yeni iş yerlərinin açılması, vətəndaşların əmək hüquqlarının təmin olunması sahəsində bir çox uğurlar əldə olunub.

Ulu öndər Heydər Əliyev irsinin əhatəsi geniş və çoxcəhətlidir. Bu irsin milli sərvətə çevrilməsi fenomenal şəxsiyyətin xalqın həyatında oynadığı tarixi xidmətlərin məntiqi nəticəsidir. Bununla yanaşı, milli dövlətçilik ənənələrinin dövrün, şəraitin tələblərinə uyğun sistemli inkişaf modelinə uyğun qurulması və bunun praktiki nəticələri gələcək nəsillər üçün irsi xarakter daşımaqla paralel, potensial mahiyyət kəsb edir. Heydər Əliyev siyasi irsinin milli-ictimai şüurda yaratdığı təcrübənin xalqın taleyüklü problemlərində yeri cəmiyyətin müxtəlif təbəqələrinin idarəetmə sistemində də özünü göstərir. İti zəka və müdriklik, qətiyyət və məğlubedilməzlik, milli dövlətçilik və azərbaycançılıq dahi insanın ömrünün əsas əlamətləridir. Ulu şəxsiyyətin zəngin dövlətçilik səriştəsi, dəmir məntiqi, fenomenal yaddaşı, tükənməz enerjisi, həyatın ən gözəgörünməz nöqtələrini belə öz bəsirət gözlərilə görmək bacarığı, ən mürəkkəb hadisələri belə düzgün qiymətləndirmək və proqnozlaşdırmaq dəst-xətti dünyanın ən görkəmli siyasi xadimlərini, ən məşhur tarixi şəxsiyyətlərini belə heyrətdə qoyub. Onu çox haqlı olaraq böyük dövlətçi, mahir diplomat, idarəçilik ustadı, zəka korifeyi adlandırırlar.

Hər bir dövlətin sosial siyasətini onun iqtisadi siyasəti, inkişaf səviyyəsi şərtləndirir. Başqa sözlə, sosial müdafiə tədbirlərinin effektivliyi və miqyası ölkənin iqtisadi imkanları ilə birbaşa bağlıdır. Sosial müdafiənin təminatı və əhatəli olması üçün müvafiq hüquqi bazanın yaradılması da vacib amildir. Məhz buna görə də müstəqil Azərbaycanın sosial müdafiə strategiyasını hazırlayan zaman ümummilli lider Heydər Əliyev bir tərəfdən sosial siyasətin ölkənin real iqtisadi imkanlarına uyğunlaşdırılmasına, digər tərəfdən isə müvafiq hüquqi-normativ bazanın yaradılmasına önəm verirdi. Onun rəhbərliyi dövründə respublikada əmək münasibətlərinin hüquqi bazasının yaradılması, yeni iş yerlərinin açılması, vətəndaşların əmək hüquqlarının təmin olunması sahəsində bir çox uğurlar əldə olunub.

Ümumiyyətlə, ümummilli lider Heydər Əliyevin hakimiyyəti zamanı əhalinin müxtəlif təbəqələrinin sosial həyatının yaxşılaşdırılması, layiqli həyat tərzi sürmələri üçün yetərli şərait yaradılıb. Onun qoyub getdiyi strategiya və ideyalar bu gün Prezident İlham Əliyev tərəfindən inamla və müasir dövrün çağırışlarına adekvat davam etdirilir.

**Mustafa KAMAL,**
**"Respublika".**